“AÇIQ HÖKUMƏT TƏRƏFDAŞLIĞI PLATFORMASI FƏALİYYƏTDƏ” Layihəsi

# Açıq Hökumət Dialoq Platforması

**Dəyirmi Masa**
**11 İyul 2017**
Holiday İnn oteli

# Press – reliz

Niderland Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə Avrasiya Əməkdaşlıq Fondu “Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramını həyata keçirir. Bu Proqram çərçivəsində “AHT Platforması fəaliyyədə” layihəsi üzrə 11.07.2017-ci il tarixində Bakıda, Holiday İnn otelində **“Dövlət büdcəsinin icrası barədə illik hesabat və Azərbaycan Respublikası Hesablama Palatasının müvafiq rəyinin ictimaiyyətə açıqlanması”, “Hesablama Palatasının maliyyə nəzarəti obyektlərində apardığı maliyyə nəzarəti tədbirləri barədə ictimaiyyətin məlumatlandırılması” və “Hesablama Palatasının 2016-cı il maliyyə nəzarəti fəaliyyətinə dair rəy” mövzularının müzakirəsi** keçirilmişdir**.**

Tədbirdə Platforma üzvü olan və olmayan qeyri-hökumət təşkilatları nümayəndələri iştirak etmişdir. AHT Platformasının koordinatoru Əlimәmməd Nuriyevin açılış nitqindən sonra Hesablama Palatasının nümayəndəsi Zaur Vəliyev “Dövlət büdcəsinin icrası barədə illik hesabatı” barədə məruzə ilə çıxış etmişdir. Daha sonra, Hesablama Palatasının digər nümayəndəsi Sənay Paşayev Hesablama Palatasının maliyyə nəzarəti obyektlərində apardığı maliyyə nəzarəti tədbirləri barədə çıxış etdikdən sonra hər iki məruzəçi dəyirmi masa iştirakçılarının suallarına cavab vermişdir.

Dəyirmi masanın ikinci hissəsində Dr.İnqilab Əhmədov “Hesablama Palatasının 2016-cı il maliyyə nəzarəti fəaliyyətinə dair rəy” mövzusunda təqdimatla çıxış etmişdir. O, tədbir iştirakçılarını HP-nın 2016-cı il üzrə yoxlamalarının funksional təsnifatı, audit fəaliyyəti, dövlət büdcəsi ilə bağlı fəaliyyət və bir sıra müxtəlif araşdırmalar ilə tanış etmiş, bəzi tövsiyələr səsləndirmiş və səslənən suallara cavab vermişdir.

Tədbir, iştirakçıların müzakirələri və Əliməmməd Nuriyevin yekun sözü ilə tamamlanmışdır.